Din qardaşını sadəcə gülər üzlə qarşılamaq olsa belə, xeyirdən sayılan heç bir əməli kiçik zənn etmə

Əbu Zərrdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə belə dedi: "Din qardaşını sadəcə gülər üzlə qarşılamaq olsa belə, xeyirdən sayılan heç bir əməli kiçik zənn etmə".
[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cüzi olsa belə xeyir əmələ təşviq edir və onun şənini kiçiltməməyi tövsiyə edir. Buna misal olaraq görüş zamanı təbəssüm etməyi göstərmək olar. Müsəlman qardaşla ünsiyyətdə səmimiyyət, qəlbinə sevinc bəxş etmək kimi xüsusiyyətlərə malik olmaq üçün hər bir müsəlman bu kimi əməllərə həris olmalıdır.

http://www.sunnah.global/hadeeth/az/show/5348